## Şagirdlərin yay tətili necə dəyərləndirilməlidir?

Beynəlxalq tədqiqatlar və təcrübələr sübut edir ki, şagird təhsil müddətində qazandıqları bilikləri əvvəl öyrəndiklərilə nə qədər çox əlaqələndirərsə, beyində bir o qədər çox neyron şəbəkəsi əmələ gələr. İnformasiyanı emal edən, məlumatları yaddaşda saxlayan şəbəkə-cığır daim aktiv qalar və proses sıx-sıx təkrarlanarsa, cığır bir o qədər açıq olar[1]. Bu həm də yaddaşın assosiv olması ilə bağlıdır. Onu necə işlətdiyimizdən, idarə etdiyimizdən və hansı təsirlərə məruz qoymağımızdan asılı olaraq, onu əhatələyən vəziyyətə uyğunlaşır. Assosiativ öyrənmə isə birbaşa koqnitiv proseslərlə bağlı olur. Koqnitiv proseslərə “diqqət”, “yadına salma”, “öyrənmə”, “yaradıcılıq”, “təşkiletmə”, “müəyyənləşdirmə”, “əsaslındırma”, “iradə” və s. kimi keyfiyyətlər aid edilir[2]. Yəni şagird tədris ili boyunca məktəbdə davamlı olaraq yeni biliklər öyrənir, köhnə bilik-bacarıqları isə dərsin məzmununa uyğun olaraq mütəmadi təkrarlanaraq, yadına salınır. Şagirdlər vaxtlarının daha çoxunu məktəbdə keçirdikləri üçün assosiativ yaddaşı həmin mühitə və öyrənməyə cəmlənir. Qazanılmış biliklərlə nə qədər çox assosasiya edilərsə, daha yaxşı yadda qalar və şagirdlərin akademik göstəriciləri hər zaman yüksək olar.

**Bəs şagirdlər məktəb mühitindən və öyrənməkdən uzaqlaşdıqda nə baş verir?**

Məlumdur ki,  yay tətili şagirdlərin məktəbdən ayrı qaldıqları ən uzun zaman kəsiyidir. Əlbəttdə həm müəllimlərin, həm də şagirdlərin dincəlməyə ehtiyacı var. Lakin unutmamalıyıq ki, yay tətilində şagirdlərin təhsildən uzaqlaşması akademik biliklərin itgisi və öncəki tədris ili müddətində öyrəndiklərinin qismən unudulması ilə nəticələnir. Aparılan tədqiqatların nəticələrinə də əsaslanaraq deyə bilərik ki, yay öyrənmə itgisinin başlıca səbəbləri sırasında şagirdlərin məktəbdən və dərsdən uzaqlaşması, tətil müddətində vahid öyrənmə proqramlarının olmaması, ailənin sosial-ekonomik vəziyyəti, yaşadıqları bölgədə öyrənmək üçün resursların əlçatan olmaması, təhsilalanların fərdi maraqları və s. kimi faktorlara dayanır [3].

Şagirdlərin yaş xüsusiyyətlərinə nəzərən ibtidai siniflərdə daha çox yazı, oxu və riyazi bacarıqlarının, yuxarı siniflərdə isə riyazi, dil və öyrənilmiş mühim biliklərin itgisi ilə qarşılaşılır. Məsələn, məktəb zamanı riyazi bilikləri və oxu bacarıqlarının qiyməti “əla” olan şagird, yay tətili müddətində günlük ən azı 1-2 saat dərs ilə məşğul olmazsa, o

zaman yeni tədris ilində qayıtdıqdan sonra onun akademik qiyməti "yaxşı"ya düşür [4]. Nailiyyət fərqinin genişlənməsinin və diferensial yay öyrənmə itkisinin qarşısını almaq üçün erkən və davamlı müdaxilələrə ehtiyac vardır. Çünki, üç aylıq tətildə şagirdlərin öyrənmə ilə bağlı bütün məsuliyyəti valideyinlərin üzərinə düşür. Bu səbəblə, hər bir müəllim yaxşı düşünülmüş və yüksək keyfiyyətli ***"yay fəaliyyət proqramı"*** hazırlayarkən valideynlərlə əməkdaşlıq etməlidir. Şagirdin yaş xüsusiyyətlərinə əsasən hazırlanan "yay *fəaliyyət proqramı"na* nəzarətin necə aparılması barəsində valideynlər maarifləndirilməlidirlər. Proqramın günlük 1-2 saatlıq ev tapşırıqları ilə yanaşı fəaliyyət yönümlü qurulması üçün aşağıda sadalanılanların nəzərə alınması müəllimlər üçün faydalı olacaqdır.

1. ***Mütaliə vərdişləri formalaşdırmaq***

   Şagirdin yaş xüsusiyyətlərinə görə Azərbaycan və dünya uşaq ədəbiyyatından şeçilmiş kitabların siyahını hazırlaya bilərsiniz. Həmçinin yeni dərs ilində tədris edəcəyiniz bədii ədəbiyyatı da bura daxil etsəniz bu metodla məktəblilərə əlavə zaman qazandırmış, həm də məzmunu yaxşı mənimsəmələrinə kömək etmiş olarsınız. Şagirdlərə kitab oxuyarkən **Kiplinq sual-cavab (*4N1KH )*** texnikasından istifadə etmələrini və oxuqları əsərlərin ideyası bağlı qısa esse yazmalarını tapşırın.

   **4N1KH cədvəli:**

| | |
|---|---|
| ***Müəllimin adı, soyadı:***<br>***Şagirdin adı, soyadı:***<br>***Sinif:***<br>***Əsərin adı və müəllif:*** | |
| ***Sual*** | ***Cavab*** |
| **1.** Əsərin ideyası nədir? | |
| **2.** Əsərdə səni təsirləndirən hadisə hansı oldu? | |
| **3.** Əsərdəki hansı qəhrəman xoşuna gəldi? | |
| **4.** Pis obraz kimdir? Niyə belə düşünürsən? | |
| **5.** Hadisələr harada baş verib? | |
| **6.** Hadisələr nə zamana baş verib? | |
| **7.** Əsərin qəhrəmanı sən olsaydın necə edərdin? | |

Yuxarı sinif şagirdləri üçün aşağıdakı cədvəl üzrə tapşırıqlar təyin edə bilərsiniz:

***Nümunə**: Əsərin məzmununa uyğun mətnin elementlərini müəyyənləşdirən fikir və cümlələri qeyd edin.*

| **Mətnin elementləri** | |
|---|---|
| **Predimet** | |
| **Mövzu** | |
| **Problem** | |
| **İdeya** | |
| **Arqument** | |
| **Qənaət** | |
| **Ümumiləşdirici fikir** | |

2. ***Tətqiqat aparmaq***

   Şagirdlərə nənə-babalarından və yaxud ailənin yaşlı qohumlarından heç kəsin eşitmədiyi, öz dialektləri ilə bağlı hər hansı bir nağıl, hekayə, bayatı, tapmaca, layla və s. öyrənmələrini və yazıya almalarını tapşıra bilərsiniz. Bu fəaliyyət onlarda araşdırmaçılıq və yeni bir şeylər öyrənmək marağını artıracaqdır.

3. **Yay xatirələrini yazmaq**

   Yay tətilinin ən yaxşı fəaliyyətlərindən biri də şagirdlərin xatirə dəftəri tutmasıdır. Tətil boyunca qarşılaşdıqları maraqlı hadisələr, yeni dostluqlar, gəzdikləri-gördükləri yerlər haqqında qısa qeydlər aparmaq *yazı bacarıqlarını və təfəkkürlərini* müsbət yöndə dəyişəcəkdir.

4. **Kiçik zooloqlar**

   Şagirdlərinizi kiçik ***"zooloqlar"a*** çevirə bilərsiniz. Çünki heyvanlar haqqında öyrənmək həmişə maraqlı olur. Uşaqlar Arktika dairəsindən tutmuş Amazonun yağışlı meşələrinə qədər, bütün **heyvanlar, quşlar və həşəratlar** haqqında öyrənməyi sevirlər. Tətil müddətində onlara sevdikləri və rastlaşdıqları canlılar barəsində məlumat toplamağı, kiçik hekayələr yazmağı, şəkillərini çəkməyi tapşırın. Sinifdə yaradacağınız ***"Foto güşə"***də hər şagirdin ***"sevimli heyvan"ının*** şəkilini asa bilərsiniz.

5. **Təbiəti sevək, qoruyaq və öyrənək**

Yay tətilində şagirdlərin istirahət üçün parklara, dəniz kənarına, şəhərətrafı rayonlara, dağlara-meşələrə gedəcəyini nəzərə alaraq, onları ətraf mühitə qarşı həssas davranmaları haqqında bir daha maarifləndirmək vacibdir. Bununla yanaşı şagirdlərinizdən təbiətə zərər vermədən ***“Biom”*** qovluqları düzəltmələrini istəyin. Yaşadıqları ərazinin landşaftına uyğun *yabanı çiçəklərin, bitkilərin, meşə və bağ ağacların yarpaqlarını* toplayaraq ***A4*** kağızlarına yapışdıra, yaxud kağıza tikərək nümunələr hazırlaya bilərlər.

Məsələn; uşaqlara aşağıdakı şəkilləri nümunə göstərə bilərsiniz.

şəkil-1



şəkil -2



6. **Təmiz dünya anlayışı formalaşdırmaq**

İctimai işərlə bağlı tapşırıqlarla şagirdlərinizin ətraf mühitə qarşı yanaşmalarını dəyişə bilərsiniz. Uşaqlara daimi yaşadıqları ərazidə və yaxud tətil üçün getdikləri dəniz kənarı, çay kənarı, kamp bölgələrində təbiətə atılmış plastik, şüşə və s. tullantıları varsa, onları toplamağı, ətraflarını abadlaşdırmaq işini tapşırın. Eyni zamanda gördükləri işlərin *foto şəkillərini* çəkərək gətirmələrini istəyin. Bu şagirdlərdə təbiətə qayğı göstərmək və cəmiyyətə faydalı insan olmaq fikri formalaşdıracaq, onları daha da məsuliyyətli edəcəkdir.

7. **Riyazi hesablamalar**

Yay tətilində şagirdlərin həm əylənib, həm öyrənəcəyi məşğuliyyətlər sırasına *riyazi hesablamalar* daxil edilməlidir. Onlara *sadə ədədlər, cədvəllər və çoxluqlarla*

məşq etmlərinə köməklik üçün müxtəlif tapşırıqlar verin. Məs; yaşadığı evdə otaqların eni və uzununu ölçür, hər otaq üçün neçə $m^2$ divar kağızı lazım olacağını müəyyənləşdirir. Yaxud qapının, pəncərənin perimetrini hesablaya bilərlər. Məznildən parka qədər olan piyada məsafənin ölçülməsi, yaşıllıq ərazinin $m^2$ tapılması və s. Hesablama zamanı fərqli ölçü vahidlərindən - metr, qarış, arşın, addım, qulac və b. istifadə fəaliyyəti daha maraqlı edəcəkdir. Məntiqi təfəkkürü inkişaf etdirəcək test tapşırıqları və sudoku tipli oyunlar da olduqca vacib sayıla bilər.

8. **Yeni bacarıqlar qazanmağa təşviq etmək**

   Şagirdlərinizin içərisində şahmata, rəsmə, əl işlərinə, musiqiyə, rəqsə, idmana, üzgüçülüyə marağı olanlar varsa, onlara yay tətilində bu bacarıqları inkişaf etdirməyi məsləhət görə bilərsiniz. Bu məşğuliyyətlər onların əqli və fiziki cəhətdən daim aktiv saxlamağa kömək edəcək.

9. **Dili bilgisi**

   Öyrəndikləri xarici dilləri unutmamaq və üzərinə yeni bilklər əlavə etmək üçün yay tətili ən yaxşı vaxtdır. Şagirdlərinizə xarici dildə olan sözləri *idiomlar* şəklində əzbərləməyi, həmyaşıdları ilə balaca dialoqlar qurmağı, qarşılaşdıqları xarici ölkə turistləri ilə ünsiyyət yaratmağı tövsiyə etməyiniz faydalı olacaqdır.

   Tətil zamanı əksər ailələr bölgələrə və ya xarici ölkələrə üz tutur. Şagirdlərinizdən gəzib-gördükləri yerlərin təbiəti, tarixi yerləri, yeməkləri, yerli əhalini özünəməxsus xüsusiyyətləri haqqında müşahidələr aparmalarını və xarici dildə qısa esselər yazmalarını tapşırın.

Yay tətilində uşaqların ancaq dərsə yönəlməsi onları *darıxdıracağı* kimi, vaxtlarını ancaq istirahət və gəzməklə keçirmələri də bütün il boyu öyrəndikləri bilikləri *unutduracaqdır.* Lakin yay tətilini əhatəli bir proqram üzrə quran, vaxtını sistemli və səmərəli keçirən, həm dərs oxuyub, həm əylənən şagirdlər isə yeni dərs ilininə qazanılmış yeni bilik və bacarıqlarla başlayacaqdırlar. Bu isə onların il boyu müvəffəqiyyət qazanması ilə nəticələnəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. **https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3055433/**

2. https://az.wikipedia.org/wiki/Assosiasiya
3. https://www.researchgate.net/publication/269392953_Do_Summer_Time-Use_Gaps_Vary_by_Socioeconomic_Status
4. https://www.researchgate.net/publication/240268350_Summer_Learning_Loss_The_Problem_and_Some_Solutions
5. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2526437
6. https://dergipark.org.tr/tr/download/article-file/1088855



**Xanım Əsədova**

**ARTİ MDPİM, Əlavə təhsilin məzmunu şöbəsinin aparıcı mütəxəssisi**